 ISSN 2709-5096

UOT 32 (327)

***Namiq Kərimov,***
***tarix üzrə fəlsəfə doktoru***
***Azərbaycan Dillər Universitetinin***
***Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrasının dosenti,***
***namiq-kerimov-80@mail.ru***
***ORCID iD: 0000-0002-9608-520X***
**https://doi.org/10.59849/2709-5096.2023.1.70**

# TANAP LAYİHƏSİ ƏTRAFINDA APARILAN DANIŞIQLAR VƏ GÜRCÜSTANIN MARAQLARI

***Annotasiya***

*Cənub Qaz Dəhlizinin mühüm bir seqmentini təşkil edən TANAP layihəsi Azərbaycan təbii qazının Türkiyə və Avropaya nəqli üçün düşünülmüşdür. Şahdəniz təbii qaz yatağının ikici fazasının işə düşməsi ilə hasil olunan mavi yanacağın Nabucco layihəsi çərçivəsində nəqlinin mümkün olmayacağı aydınlaşdığı bir vaxtda Azərbaycan özü təşəbbüskar kimi çıxış etdi və Türkiyə ilə birlikdə TANAP layihəsini reallaşdırmağa qərar verdi. Gürcüstan isə həm ehtiyac duyduğu təbii qaza olan tələbatını daha əlverişli şərtlə qarşılamaqla yanaşı, tranzit ölkə olaraq böyük iqtisadi və siyasi dvidentlər əldə etmiş olurdu.*

***Açar sözlər:*** *Azərbaycan, təbii qaz, qaz kəməri, təchizat, TANAP layihəsi*

**Namig Kerimov**

# NEGOTIATIONS ON THE TANAP PROJECT AND THE INTERESTS OF GEORGIA

***Annotation***

*The TANAP project, which is an important segment of the Southern Gas Corridor, is intended to transport Azerbaijani natural gas to Türkiye and Europe. Azerbaijan itself acted as an initiative and decided to implement the TANAP project together with the brother country Türkiye, when it became clear that it would be impossible to transport the blue fuel produced by the second phase of the Shah Deniz natural gas field within the framework of the Nabucco project. Georgia, as a transit country has also obtained great economic and political dividends in addition to provide its demand for natural gas in a more favorable condition.*

***Keywords:*** *Azerbaijan, natural gas, gas pipeline, reserves, TANAP project.*

## *Giriş*

Boru kəmərlərinin çəkilməsi tək iqtisadi məsələ olmayıb, özündə geosiyasi və geostrateji məqsədləri də ehtiva etdiyindən kəmərin keçəcəyi tranzit ölkələrlə razılığın əldə edilməsi, daşıma tariflərinin müəyyənləşdirilməsi, tikintini həyata keçirmək üçün investisiyaların tapılması kimi çətin və zaman tələb edən problemləri həll etmək lazım gəlir. Digər tərəfdən boru xətti ilə daşımalar uzun müddətli müqavilələr tələb edir. Karbohidrogen ehtiyatları, onların hasilatı və daşınması siyasi ədəbiyyata yeni anlayış olan enerji geosiyasətini gətirmişdir. Təbii qazın hasil olunduğu məkandan istehlak məntəqələrinə daşınması adi nəqliyyat işi çərçivəsindən çıxaraq qlobal aktorların maraqlarının cəmləşdiyi geostrateji və geoiqtisadi anlam kəsb etməkdədir. Təbii qaz ehtiyatlarına sahib olan dövlətlər bəzən sərvətlərindən xarici siyasət aləti kimi istifadə edirlər. Bundan əlavə, təbii qazın istehsalı və istehlakının həyata keçirən ölkələr arasında yer alan tranzit statuslu dövlətlər bazarda strateji oyunçu qismində çıxış edir.

Bu amillər təbii qazın beynəlxalq geosiyasi əhəmiyyətini ortaya qoyur. Təbii qaz ixrac edən və idxal edən ölkələr arasındakı şaquli münasibətlərdə bir tərəf üçün üstünlük digər tərəf üçün

əlverişsizdir, risklərin optimal bölüşdürülməsi çətindir və bu münasibətlər alış və ya ödəmə öhdəlikləri, qiymət indeksləri (neft), ixrac qadağası (beynəlxalq bazarların de-fakto bölgüsü) kimi üç əsas prinsipə söykəndiyi görülür. Bu səbəblər təbii qazın beynəlxalq ticarətində yaranan problemlərin dərindən öyrənilməsini tələb edir.

***TANAP layihəsi ilə bağlı ilkin danışıqlar və tərəflərin maraqları***

Azərbaycanın Şahdəniz yatğının ikinci fazasından hasil olunacaq təbii qazın Türkiyə vasitəsi ilə Avropa bazarlarına çıxarılması fikri ilk dəfə 2011-ci ilin oktyabr ayında Türkiyə-Azərbaycan tranzit müzakirələri gedişində gündəmə gəlmişdir. Xatırladaq ki, Şahdəniz yatağı BP-nin yüzillik tarixində kəşf edilmiş ən böyük qaz yatağıdır. 1999-cu ildə kəşf edilən bu yatağın birinci mərhələsi 2006-cı ilə qədər işlənmişdir. 2006-cı ildən isə ikinci mərhələ işlənməyə başlamışdır.

İlkin danışıqların gedişində Şahdəniz-2 layihəsi əsnasında hasil olunacaq təbii qazın Türkiyənin mövcud qaz kəmərlərlərini genişləndirməklə həyata keçirmək müzakirə olunurdu ki, bu da əsasən rəsmi Ankaranın istəyi idi. [4] Türkiyə ilə Azərbaycan arasında təxminən 3 il davam edən Şahdəniz-2 layihəsi əsasında hasil olunacaq qazın nəqli ilə bağlı aparılan danışıqların gərginliyinin təməlində Avropaya daşınacaq qazın Türkiyənin nə qədərini və hansı qiymətə alacağı ilə yanaşı, tranzit taariflərinin müəyənləşdirilməsi məsələsi dayanırdı. Ən başlıcası Türkiyənin Avropaya nəql ediləcək Azərbaycan təbii qazının mülkiyyətçisi olmaq istəyi idi. Başqa sözlə, Türkiyə Azərbaycan qazını alıb, özü Avropaya satmaq istəyirdi [17]. Lakin, Azərbaycan höküməti Türkiyənin iqtisadi və siyasi mənfəətini göz önünə almaqla yanaşı, özünün də strateji maraqlarından əl çəkə bilməzdi. Rəsmi Bakı mavi yanacağın mənbəyi kimi çıxış etməklə yanaşı, həm də onu nəql edəcək kəmərin əsas payçısı olmaq istiqamətində danışıqların aparılmasında maraqlı idi. Qardaş ölkənin siyasi elitasında Türkiyənin coğrafi üstünlükəri Yaxın Orta Şərqin, Xəzər bölgəsinin və Rusiyanın Avropa bazarlarına qaz ixracında tranzit ölkə olmaq imkanlarını iddia etməyə tam imkan verdiyindən və BTC, BTƏ kimi layihələrin ardınca bu dəfə də rəsmi Ankaranın qazanacağına əlavə imkanlar yaratdığı düşüncəsi hakim idi. İki qardaş ölkə arasında sırf iqtisadi-kommersiya xarakterli bu gərginlikdən tamamilə ayrı istiqamətdə yararlanmağa çalışdılar. Türkiyə ilə Ermənistan arasında sərhədlərin açılması və iqtisadi əlaqələrin bərpası kimi spekulyativ informasiyalar mətbuata sızmağa başladı. Bu mövqedən çıxış edən qruplar görünür ki, eyni kökə, tarixə, mədəniyyətə malik bu iki qardaş dövləti belə məsələlərlə üz-üzə gətirməyin mümkünsüzlüyünü anlamamışdılar. Azərbaycan ixrac kəmərlərinin istiqamətinin müəyyənləşdirilməsində hər zaman Türkiyənin maraqlarını göz önünə almış və AB ilə münasibətlərində onun bir tranzit ölkə kimi Brüssel qarşısında mövqelərinin güclənməsinə çalışmışdır.

İxrac marşurutlarının müəyyənləşdirilməsində alternativ layihələr də var idi. Bunların gündəmə gəlməsi ilə Türkiyə də mavi yanacağın əsas sahibi olan Azərbaycanın maraqlarını mütləq şəkildə nəzərə alınmasının gərəkli olduğunu anladı. Rusiya Xəzər və Orta Şərqin təbii qazının Avropaya nəqlini nəzərdə tutan Nabucco-nu dövriyyədən çıxarmaq üçün Türkmənistandan qaz alışını artırmaqla yanaşı Azərbaycanın da hasil etdiyi bütün qazın Avropa qiymətlərinə (min kub metri 350 dollara) almağa hazır olduğunu bildirməsinin [18] ardından 2009-cu ilin oktyabr ayında Azərbaycandan ildə 500 milyon kub metr təbii qaz alınması ilə bağlı razılıq əldə etdi. [3] Razılığa əsasən alınacaq qazın həcmi ildə 2 milyard kub metrə qədər artırıla bilərdi. Digər layihə isə Gürcüstanın Qara dəniz sahilində yerləşən limanlarından birinə (Kulevi) daşınacaq təbii qaz, burada tikiləcək qurğular vasitəsilə sixlaşdırılaraq maye halına salındıqdan sonra xüsusi tankerlərlə Rumıniya sahillinə (Konstansa limanı) daşınacaq, burada yenidən təbii qaz halına salınaraq kəmər vasitəsi ilə nəql olunması nəzərdə tutulurdu. “Ağ Axım” və AGRİ layihələri bu marşrut çərçivəsində idi. [8, s.63]

***TANAP layihəsi ilə bağlı danışıqların real müstəviyə keçməsi və razılığın əldə edilməsi***

Bütün bunlar Türkiyənin də mövqeyinin yumşalmasına təsirsiz ötüşmədi. 2010-cu il iyunun 7-də Şahdəniz yatağından hasil olunacaq təbii qazın Türkiyə ərazisindən keçməklə Avropaya daşınmasını nəzərdə tutan Türkiyə adından BOTAŞ şirkəti ilə Azərbaycanın SOCAR şirkəti arasında Anlaşma Memorandumu imzalanmışdır. Bu sənədə əsasən Şahdəniz faza-2-yatağından hasil olunacaq təbii qazın illik 10 milyard kub metri Avropaya daşınmalı idi. [14, s.871] 25 oktyabr 2011-ci il tarixində İzmir şəhərində keçirilən Yüksək Səviyyəli Türkiyə-Azərbaycan Strateji Əməkdaşlıq Şurasının birinci iclasından sonra, elə həmin gün Azərbaycan Respublikasının hökuməti ilə Türkiyə Cümhuriyyəti hökuməti arasında mavi yanacağın qardaş ölkəyə satışı və onun ərazisi vasitəsilə daşınması üçün ayrı bir qaz boru xəttinin tikintisinə dair saziş imzalandı. Bundan sonra layihənin detalları üzrə işlənməsi ortaya çıxdı [13, 13-15; 16]. SOCAR-ın rəhbəri R. Abdullayev 2011-ci il 17 noyabr tarixində Qara Dəniz Enerji və İqtisadi Forumunda TANAP haqqında mediyaya geniş məlumat verməklə onun siyasi və akademik çevrələrdə geniş müzakirələri başlamış oldu. 2011-ci il dekabrın 24-də isə Azərbaycan ilə Türkiyə arasında ilkin razılaşma əldə olundu [2]. Razılaşmaya uyğun olaraq Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında TANAP layihəsinə dair Türkiyənin iştirak payına (20%) və Azərbaycanın iştirak payına (80%) uyğun olaraq konsorsiumun yaradılması haqqında Anlaşma Memarandomu imzalanmışdır. İki ölkə arasında bağlanmış bu müqavilə Türkiyə Böyük Millət Məclisində 28351 saylı qanunla təsdiqlənmiş 12 iyul 2012-ci ildə rəsmi qəzetdə dərc olunmaqla qüvvəyə minmiş hesab olunmuşdur. 26 iyun 2012-ci ildə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 20 illik yubiley Sammitində iştirak üçün Prezident İ. Əliyevin İstanbula səfəri gedişində Türkiyə ilə Azərbaycan arasında Dolmabaxça sarayında TANAP üzrə yekun müqavilə- "Ev sahibi hökuməti müqaviləsi", Hökumətlərarası Müqavilə və Boru xəttinə dair Anlaşma Memorandomu imzalandı [19, s.994]. Müqavilə 19 mart 2013-cü ildə Rəsmi qəzetdə dərc olunması ilə Türkiyə tərəfindən təsdiq olunaraq, qüvvəyə minmişdir [20, s.1]. Şahdəniz-2 çərçivəsində hasil olunacaq qazın Türkiyədən keçməklə Avropaya nəqlini nəzərdə tutan Hökumətlərarası Müqavilə Azərbaycan və Türkiyə hökumətləri arasında Azərbaycanın Sənaye və Energetika naziri N. Əliyev ilə Türkiyənin Enerji və Təbii Qaynaqlar naziri T. Yıldız tərəfindən hər iki ölkə prezidentinin şahidliyi ilə imzalandı. Ev Sahibi Ölkə Anlaşması Türkiyə hökuməti ilə TANAP şirkəti arasında Türkiyənin Enerji və Təbii Qaynaqlar naziri T. Yıldız ilə SOCAR-ın prezidenti R. Abdullayev tərəfindən imzalanmışdır. Müqavilənin müddəti 24 il müəyyən edilmiş və 2036-cı il bitmə tarixi hesab edilirdi [21, s.6]. Müqavilədə qarşılıqlı razılıq əsasında onun müddətinin uzaldıla bilməsi göstərilirdi.

26 may 2014-cü ildə Türkiyə Cümhuriyyəti hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında TANAP layihəsinə aid növbəti sənəd imzalandı. Anlaşmaya uyğun olaraq BOTAŞ ilə TANAP təbii qaz Daşıma Anonim Şirkəti arasında Şahdəniz 2 fazasından hasil ediləcək illik 6 milyard kub metr təbii qazın TANAP vasitəsilə Türkiyəyə daşınması, BOTAŞ ilə SOCAR Türkiyə Petrokimya-A.Ş. arasında 28 iyun 2011-ci ildə illik 1,2 milyard kub metr təbii qazın tədarükünə dair müqavilənin müddətinin 2021-ci ilin sonuna qədər uzadılması, BOTAŞ-ın TANAP-dakı payının 20%-dən 30%-ə çatdırılması nəzərdə tutulurdu [6]. TPAO-ya Şahdəniz sahəsindən və Cənub Qafqaz Boru Kəmərindən əlavə 10% pay verilməsi (əvvəl 9% paya sahib idi) Türkiyə hökumətinin müəyyənləşdirdiyi bir dövlət şirkətinə Xəzərin Azərbaycan sektorundakı Zəfər-Məşəl qaz yatağından 10%-lik pay verilməsi nəzərdə tutulurdu. [22, s.4] Bu razılaşmadan sonra TPAO Şahdəniz yatağında 19%-lik payla ikinci ən böyük ortaq olmuşdur.

2011-ci il 25 oktyabrda imzalanan müqavilədə ildə 16 milyard kub metr (6 milyard kub metri Türkiyəyə, 10 milyard kub metri isə Türkiyə vasitəsi ilə Avropaya ) təbii qazın nəqli nəzərdə tutulurdu [7, s.15]. Daha dəqiq ifadə etsək Avropaya nəql olunacaq 10 milyard kub metr təbii qazın 2 milyard kub metri Bolqarıstan və Yunanıstana (hər biri üçün 1 milyard kub metr), qalan 8 milyard kub metri isə İtaliyaya nəql olunması planlaşdırılırdı.

Yaxın gələcəkdə həcmin illik 24 milyard kub metrə, hətta növbəti mərhələdə- 2026-cı ildə əlavə investisiyaların qoyulması ilə illik 30 milyard kub metrə çatdırılması hədəflənməkdədir [23, s.9]. Bu artımı Abşeron, Ümid-Babək və Şah Dəniz yatağının III fazasının işlənməsi ilə əldə

olunan mavi yanacaq hesabına həyata keçirmək mümkündür. Bu artım NABUCCO-nun illik ötürmə gücünə (31 milyard kub metr) yaxındır. Avropa İttifaqı reallaşmayan NABUCCO-nun imkanlarını TANAP-da görürdü və təbii qaza olan ehtiyacının ödənilməsində Rusiyaya məxsus "Qazprom" şirkətinin inhisarçı mövqeyindən qurtulmaq üçün bir fürsət hesab edirdi. Düzdür, Şahdəniz yatağının ehtiyatları Rusiyanın qaz ehtiyatları ilə müqayisədə çox azdır və hətta düşünmək olar ki, bu köhnə qitənin mavi yanacağa olan ehtiyacının ödənilməsində Moskva nəhəngi "Qazprom" şirkətinə ciddi rəqabət yaratmır. Amma gələcəkdə bu kəmərlə Türkmənistan, Qazaxıstan eləcə də İran qazının da daşınması mümkünlüyü Rusiyanı narahat edir.

TANAP-ın tikintisi 3 il müddətində tamamlanmalı idi. Kəmərin istismar müddətinin isə 40 il olması müqavilədə öz əksini tapmışdır. Maraq doğuran məsələlərdən biri də budur ki, Türkiyə TANAP layihəsində 30% paya sahib olmaqla bərabər, Şahdəniz yatağında da 19% paya malik olduğundan təbii qazın satışında və ya daşınmasında hər hansı endirimlərin olması rəsmi Ankara üçün mənfi və müsbət təsirləri qaçılmaz edirdi. [24, s.554].

***TANAP-ın reallaşmaması üçün yaradılmış əngəllər***

TANAP-ın reallaşması sözsüz ki, Azərbaycan və Türkiyənin güclənməsini istəməyən qüvvələri ciddi narahat edirdi. Layihənin baş tutmaması üçün bütün mümkün vasitələrdən istifadə olunurdu. Hətta Türkiyə Cümhuriyyətində dövlət çevrilişinə cəhd belə edildi. Birmənalı şəkildə həmin çevrilişə cəhdin əsas səbəbi kimi TANAP-ı göstərmək düzgün olmazdı. Amma bununla belə, TANAP üçün 17 dekabr 2013-cü ildə investisiya qərarı verildiyi gündə Türkiyədə Fətullah Gülənin rəhbərlik etdiyi qruplaşma tərəfindən dövlət çevrilişinə cəhdi qətiyyən təsadüf hesab etmək olmaz. 17 dekabr 2013-cü il dövlət çevrilişinin məqsədi Türkiyəni vətəndaş müharibəsinə sürükləmək, ölkənin iqtisadi gücünü azaltmaq, bölgədəki hərbi və siyasi nüfuzunu sarsıtmaq, hegemon səsini qısmaq və senarisi okeanın o tayında yazılmış "Ərəb Baharı"nı Türkiyəyə ixrac etməklə onun Azərbaycanla birlikdə həyata keçirdiyi layihələri o cümlədən TANAP-ı məhv etməkdən ibarət idi. 2013-cü il 17 dekabr dövlət çevrilişinin TANAP ilə bağlılığının olduğunu Türkiyənin siyasi elitasında kifayət qədər nüfuzu olan və həmin dövrdə Enerji və Təbii Sərvətlər naziri işləmiş T. Yıldızın 17 mart 2015-ci ildə Qarsda keçirilən TransAnadolu Qaz Kəmərinin təməlqoyma mərasimindəki çıxışında söylədikləri sübut etmiş olur:

"*17 dekabr günü Türkiyə Cümhuriyyətində daxili siyasi sabitliyin pozulmasına, demokratik və legitim hakimiyyəti silahlı yolla devirməyə cəhdlər tarixi olmaqla yanaşı, eyni zamanda, TANAP layihəsi üçün də investisiya qərarının qəbul edildiyi gündür. Bunlardan hansı üstün olsa idi, o birinə mane olacaqdı. İnvestisiya qərarı üstün oldu və Türkiyə Cümhuriyyətindəki daxili siyasi sabitliklə birlikdə bu layihə də həyata keçməyə davam etdi. Bir türk şirkəti TPAO olaraq, qardaş Azərbaycana hədsiz güvənimizlə bərabər Xəzər bölgəsindəki səhm payımızı 9 faizdən 19 faizə qədər artıra bildik* " [9; s.14].

***TANAP layihəsinin reallaşmasının Gürcüstan üçün əhəmiyyəti***

TANAP Gürcüstan üçün də böyük əhəmiyyət kəsb etməkdədir. Hər şeydən əvvəl, Gürcüstan mavi yanacağa olan tələbatının ödənilməsi baxımından 100% xaricə bağlıdır ki, ərazisindən belə bir kəmərin keçməsi enerji təhlükəsizliyinin təmini baxımından strateji önəm daşıyır. Digər yandan, tranzit ölkə kimi Gürcüstanın bu layihədən gəlirləri zəif büdcəsini əlavə vəsaitlərlə təmin etmiş olacaqdır[12, s.362-365]. Təhlükəsizlik baxımından da bu kəməri Gürcüstan üçün mühüm hesab etmək olar. Azərbaycanın müəllifi olduğu və Avropaya yönələn bir neçə böyük layihənin (Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bak-Tbilisi-Qars, Cənub Qaz Dəhlizi) məhz Gürcüstan ərazisindən keçməsi Avro-Atlantik məkana inteqrasiya etmək istəyən rəsmi Tbilisiyə bu istiqamətdə əlavə güc verir. Gürcüstanın Abxaziya və Cənubi Osetiya kimi problemləri var, təhlükəsizlik və sərhədlərin toxunulmazlığı məsələsində Avropa İttifaqından dəstək alınmasında bu ölkənin nəqliyyat arteriyasına çevrilməsi mühüm rol oynayar.

Qeyd etmək lazımdır ki, Gürcüstana ilk təbii qaz kəməri keçən əsrin 60-cı illərində Qaradağ rayonundan Tiflisə çəkilmişdir. Maraqlıdır ki, Gürcüstanı təbii qazla təmin edən ilk kəmər məhz

Azərbaycandan çəkilmişdir.1955-ci ildə Qaradağ qaz kondensat yatağının və digər yatqların istismarına başlanılması Azərbaycanın Gürcüstana mavi yanacaq ixrac etməsinə imkan yaratmış oldu. Azərbaycan ərazisində qaz yataqlarının istismara verilməsi ilə yanaşı həmin vaxt diametri 720 mm, uzunluğu isə 485 km olan Bakı-Tbilisi mağistral qaz kəməri tikilib istifadəyə verildi [1, s.37]. Bu kəmər həmçinin, Azərbaycanın qərb bölgəsinin qazlaşdırılmasında mühüm rol oynamış oldu. 1965-ci ildə isə Vladiqafqaz-Tbilisi təbii qaz kəmərinin çəkilməsi ilə Rusiya qazı (əslində Türkmənistan qazı) Gürcüstana daxil oldu [5, s.2]. Rusiyadan qaz nəqlini mümküm edən Şimal-Cənub qaz kəməri 1960-cı illərdə inşaa edilmişdir. Rusiya-Gürcüstan sərhəddindən başlayan bu kəmər 221 km məsafədə uzanaraq Ermənistana çatır [11, s.270-271]. SSRİ-nin çöküşünün ardından 1992-ci ildə Gürcüstanın Rusiya və Ermənistanla bağladığı müqaviləyə əsasən Gürcüstan tranzit ölkə olaraq alaçağı keçid haqqının əvəzinə ərazisindən keçən rus qazının 10%-ni daxili tələbatını ödəmək üçün istifadə etmişdir.

1970-1978-ci illərdə İran da Gürcüstanın mavi yanacağa olan tələbatının ödənilməsi üçün SSRİ-nin razılığı əsasənda bu ölkəyə Cənub-Şərq qaz kəməri ilə təbii qaz ixrac etmişdir. Amma 1979-cu il İslam inqilabından sonra bu ixracat kəsilmişdir [13, s.234-235]. İrandan Gürcüstana uzanan Cənub-Şərq qaz boru kəməri də fəaliyyətini dayandırmışdır. Sovet dönəmində Gürcüstanın təbii qazla təminində Rusiya Azərbaycanla bərabər əsas təhcizatçı ölkə olmuşdur. Qeyd etmək lazımdır ki, müstəqillik qazandıqdan sonra Ermənistan məhz Şimal-Cənub qaz kəməri vasitəsilə güzəştli şərtlərlə Rusiyadan təbii qaz almaqda idi. Gürcüstan və Rusiya arasında zaman-zaman yaşanan məlum gərginliklər bu kəmərin taleyini sual altında qoymuş olurdu. Gürcüstan höküməti bir müddət öncə kəməri özəlləşdirmək istədikdə Azərbaycan tərəfi 500 milyon dollar müqabilində sözügedən boru xəttinə sahib olmaq istəyini bildirmişdir [5, s.3]. Gürcüstan tərəfi bunun Ermənistanla münasibətlərini korlayacağını nəzərə alıb SOCAR-ın təklifini qəbul etmədi.

Müstəqilliyin ilk illərində Gürcüstan mavi yanacaq baxımından tamamilə Rusiyadan asılı vəziyyətdə idi. 2003-cü ildə Gürcüstanda baş vermiş məxməri inqilabdan sonra hakimiyyətə gələn M.Saakaşvili siyasl sahədə olduğu kimi, enerji sahəsində də Rusiya ilə işbirliyindən uzaqlaşma xəttini götürdü. M.Saakaşvili dönəmində Gürcüstanın təbii qaz ehtiyacının böyük hissəsi Azərbaycandan idxal hesabına ödənilirdi. Amma Saakaşvilidən sonrakı dönəmdə Gürcüstan höküməti eneji sahəsində tək Azərbaycandan asılı olmamaq yolunu tutdu . Bu aspektdə Rusiya və İran ilə danışıqlar genişləndirildi. Gürcüstanın enerji naziri K. Kaladze bunu enerji mənbələrini çeşidləndirilməsi kimi təqdim etsə də, əslində B. İvanaşvilinin rəhbərliyi altında "Gürcü arzusu" partiyasının siyasi hakimiyyə gəlişindən sonra rəsmi Tbilisinin Rusiyanın maraqlarını önə çəkdiyi görünməkdədir.

***Nəticə***

Aparılan elmi təhlildən bu qənaətə gəlmək olur ki, Azərbaycanın Xəzər dənizi sektorunda Şahdəniz qaz yatağının ikinci mərhələsinin işlənməsi nəticəsində hasil olunan təbii qazın dünya bazarına nəqlini həyata keçirmək üçün nəzərdə tutulmuş Cənub Qaz dəhlizinin 4 seqmentindən birini təşkil edən TANAP layihəsi ətrafında danışıqlar gərgin geosiyasi və geoiqtisadi maraqların toqquşması çərçivəsində getmişdir. İlk öncə Qərb dövlətləri tərəfindən dəstəklənən "Nabucco" daha sonra isə "Nabucco Qərb" layihələri ətrafında aparılan danışıqların real məzmun kəsb etmədiyini vaxtında başa düşən Azərbaycan höküməti qardaş Türkiyə ilə birlikdə Avropanın ernerji təhlükəsizliyində əhəmiyyətə malik olacaq Cənub Qaz Dəhlizinin reallaşdırılmasına qərar verdilər. Danışıqların kifayət qədər gərgin keçməsinə baxmayaraq Azərbaycan bunun öhdəsindən gələ bildi. Bir tərəfdən əvvəlki boru kəmərləri ilə müqayisədə rəsmi Bakı daha çox paya sahib olmaqla, faktiki olaraq bu layihədə əsas söz sahibinə çevrilirdi. Digər tərəfdən isə Azərbaycan Avropanin təbii qaz bazarına yeni oyunçu olaraq daxil olurdu. Bu da təbii ki, Rusiyanın inhisarçı enerji siyasətindən təngə gəlmiş Qərb dünyası üçün rəsmi Bakının əhəmiyyətini artırmış olurdu.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycanın neft və qaz kəmərləri sistemi. Azərbaycan neft sənayesi üzrə informasiya resurs mərkəzi. Bakı: 2006, 83 səh.
2. "Azərbaycan qəzeti", 28 iyun 2012-ci il.
3. Azerbaijan: Baku Set to Quadruple Gas Exports to Russia by 2011, Eurasianet, January 22, 2010, electron resurs: https://eurasianet.org/azerbaijan-baku-set-to-quadruple-gas-exports-to-russia-by-2011
4. Cain, Michael j. G., et all. "Linking The Caspian To Europe: Repercussions Of The Trans-Anatolian Pipeline", Rethink Paper 06, October 2012.
5. Elnur İsmayıl. Enerji Güvenliğinde Gürcistan'ın Jeopolitik Önemi ve Rusya//-İstanbul: BİLGESAM Analiz/ Kafkasya,-10 aralık 2015. № 1268, 9 s. Elektron resurs:https://silo.tips/download/enerji-gvenliinde-grcistan-n-jeopolitik-nemi-ve-rusya
6. "Enerjide tarihi anlaşma", "Sabah gazetesi" 31 Mayıs 2014.
7. Erdal Tanas Karagöl, Salihe Kaya. Enerji arz güvenli ve Güney Gaz Koridoru (GGK) Analiz-SETA / Siyaset, Ekonomi ve Toplum Araştırmalar Vakfı, İstanbul, Eylül 2014, 32 s. Elektron resurs: https://www.researchgate.net/publication/340591826_ENERJI_ARZ_GUVENLIGI_VE_GUNEY_GAZ_KORIDORU_GGK)
8. Hacızadə E. M. Neft-qaz sektorunun inkişafının iqtisadi artıma təsirinin qiymətləndirilməsi. Azərbaycanın vergi jurnalı 2/2012.s. 49-86, PDF processed with CutePDF evaluation edition www.CutePDF.com s.63.
9. "Xalq qəzeti" 17 mart 2015-ci il.
10. Kərimov N.Ə. Müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasının təbii qaz təhcizatı sahəsində problemlər və görülən tədbirlər Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının 30 illiyinə həsr olunmuş "İşğal olunmuş ərazilərimizin azad olunması müstəqilliyimizin 30-cu ildönümünə ən böyük töhvədir" mövzusunda Beynəlxalq elmi konfrans. 19-20 oktyabr 2021-ci il, BDU, s.234-238.
11. Kərimov N.Ə. Ermənistanın mövcud təbii qaz təchizatı sisteminə siyasi nöqteyi-nəzərdən baxış" Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda ikinci Qarabağ Vətən müharibəsi: Dövlət, Xalq, Ordu birliyi. Uğurlar və perspektivlər" mövzusunda Beynəlxalq elmi konfrans, 29-30 oktyabr 2021, ADU s. 270-277.
12. Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. I hissə-Bakı: "Mütərcim" nəşriyyatı, 2015, 648 səh.
13. Nuray Erdoğan TANAP projesinin Türkiye ve Azerbaycan enerji politikalarındakı yeri ve önemi. Ömer Halisdemir Universitesi İktisadi ve İdari Bilimler Fakultesi Dergisi. Yıl, Temmuz; 2017, Cilt sayı 10 (3) s.10-26. Elektron resurs: https://dergipark.org.tr/tr/download/article-file/322410
14. Ramazan Erdağ Anadolu Geçişli Doğal Gaz Boru Hattı Projesi (TANAP)'nin Küresel Enerji Politikalarına Etkisi Üzerine Bir Değerlendirme. The Journal of Academic Social Science Studies, International Journal of Social Science Volume 6 Issue 3, p. 867-877, March 2013. Elektron resurs: https://arastirmax.com/tr/system/files/dergiler/79201/makaleler/6/3/arastrmx_79201_6_pp_867-877.pdf
15. "Respublika qəzeti" 17 mart 2015-ci il.
16. "Sabah gazetesi" 26.10.2011.
17. Shah Deniz Phase Two Postponement Officially Confirmed, Vladimir Socor, Eurasia Daily Monitor Volume: 6 Issue: 84, May 1, 2009. elektro resurs: https://jamestown.org/program/shah-deniz-phase-two-postponement-officially-confirmed
18. Torrey Clark and Stephen Bierman, Gazprom Ready to Buy All Gas From Azeri Nabucco, BaseBloomberg, May 15, 2009.

19. Trans-Anadolu Doğal Gaz Boru Hattı Projesinden ekonomik ve stratejik beklentiler. SESSİON-5D: Enerji ve Tabii Kaynaklar. Prof.dr. Osman Nuri Aras, ph.D. Candidate Elchin Suleymanov, Prof.dr.Fakhri Hasanov. s. 991-998.
20. TANAP yer üstü tesisler için yeniden yerleşim eylem planı yönetici özet. SFG2360 V4. Elektron resurs: https://ewsdata.rightsindevelopment.org/files/documents/16/WB-P157416_LHYy6em.pdf. 5 s.
21. Trans-Anadolu Doğal Gaz Boru Hattı. TANAP Raporu. Hazırlayanlar Gülmira Rzayeva, Burcu Gültekin Punusmann, M.Mete Göknel Hazar Strateji Enstitüsü. İstanbul, Kasım 2012. Gülmira Rzayeva TANAP-Hazar gazını Avrupaya taşıyan atılım projesi. 23 s Elektron resurs: https://www.academia.edu/7828858/TANAP_Raporu
22. T.C. Başbakanlık Kanunlar ve Kararlar Genrl Müdürlügü. Sayı: 31853594-101-1002-3001, 10 temmuz 2014. 23 s.
23. Türkakım: Türkiye ekonomisine ve enerji güvenligine etkileri. Ekonomi ve Dış Politika Araştırmalar Merkezi.. Baskı İstanbul, Kasım 2017 Baskı : İmak Ofset Basım Yayın Tic. ve San. Ltd. Şti. 60 s. Elektron resurs: https://edam.org.tr/wp content/uploads/2017/11/turkstream_report_TR.pdf
24. Yunus Furuncu TANAP'ın Orta Asya ve Avrupa enerjisi pazarlarına etkisi. Yönetim ve ekonomi Yıl:2018 cilt:25 sayı:2 Manisa Celal Bayar Üniversitesi İ.İ.B.F. s.543-561 Elektron resurs: https://dergipark.org.tr/tr/download/article-file/523783

Daxilolma tarixi: 16.04.2023
Çapa qəbul edilmişdir: 05.05.2023